

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ *qapısı*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 15 (23.427)

*25 yanvar 2020-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Davosda İsveçrənin Montrö şəhərinin meri, Azərbaycan-İsveçrə Dostluq Qrupunun həmsədri Loran Verli ilə görüşü olub.

Söhbət zamanı Azərbaycan ilə İsveçrənin şəhərləri arasında əməkdaşlıq münasibətlərinin qurulması ilə bağlı fikir mübadiləsi aparılıb, bir müddət əvvəl Montrö şəhəri ilə Bakının Səbail rayonunun qardaşlaşdığı bildirilib.

Görüşdə Azərbaycan şirkətlərinin İsveçrədə aktiv fəaliyyəti qeyd edilib və iki ölkənin şirkətləri arasında münasibətlərin daha da genişləndirilməsinin əhəmiyyəti vurğulanıb.

* * *

Prezident İlham Əliyev Davosda "Equinor" şirkətinin baş icraçı direktoru Eldar Saetre ilə görüşüb.

Görüşdə "Qarabağ" yatağı layihəsi müzakirə olunub. "Equinor" şirkətinin 1994-cü ildən Azərbaycanda olduğunu deyən dövlətimizin başçısı ölkəmizdə onun fəaliyyətinə çox böyük əhəmiyyət verildiyini qeyd edib. Alternativ enerji mənbələri üzrə layihələr barədə də fikir mübadiləsi aparılıb.

## *"Seçki hüquqlarının pozulmasına dair şikayətlərin məhkəmə qaydasında həlli"* mövzusunda seminar-müşavirə keçirilib



Seminar-müşavirəni Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sədr müavini Əli Qədimov açıb. Komissiyanın baş məsləhətçisi Xəlil Əliyev "Vətəndaşların seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onların araşdırılması qaydası" mövzusunda çıxış edərək bildirib ki, Seçki Məcəlləsinin 112-ci maddəsinə əsasən seçicilər, namizədlər, qeydə alınmış namizədlər, siyasi partiyalar, siyasi partiyaların blokları, referendum üzrə təşviqat qrupları, qeydə alınmış namizədlərin, siyasi partiyaların, siyasi partiyalar bloklarının, referendum üzrə təşviqat qruplarının vəkil edilmiş şəxsləri, müşahidəçilər, habelə seçki komissiyaları vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilərlər. Qeyd olunub ki, bu haqda şikayət yazılı verilir. Onun yazılı şəkildə verilməsi mümkün deyilsə, müstəsna hallarda şifahi, telefonla və ya elektron poçt vasitəsilə verilə bilər. Qanunvericiliyin tələbinə görə, məntəqə seçki komissiyalarının qərarlarından, hərəkətlərindən (hərəkətsizliklərindən), məntəqə seçki komissiyaları sədrlərinin hərəkətlərindən (hərəkətsizliklərindən) şikayətlər müvafiq dairə seçki komissiyalarına, dairə seçki komissiyalarının qərarlarından, hərəkətlərindən (hərəkətsizliklərindən), dairə seçki komissiyaları sədrlərinin hərəkətlərindən (hərəkətsizliklərindən) şikayətlər, həmçinin bir neçə seçki dairəsini əhatə edən (o cümlədən seçkiqabağı təşviqat qaydalarının pozulması ilə bağlı) şikayətlər Mərkəzi Seçki Komissiyasına təqdim edilir. Mərkəzi Seçki Komissiyasının qərarlarından və ya hərəkətlərindən (hərəkətsizliyindən) şikayət müvafiq apellyasiya instansiyası məhkəməsinə verilir. Bundan əlavə, şikayətdə göstərilmiş qanun pozuntusu Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə uyğun olaraq cinayət hesab oluna bilərsə, müvafiq seçki komissiyası şikayətdə göstərilən çatışmazlıqların və qanun pozuntularının aradan götürülməsinə dair qərar qəbul etməklə yanaşı, cinayət işinin başlaması məqsədilə müvafiq prokurorluq orqanına müraciət edir. Hər bir şikayətə dair Mərkəzi Seçki Komissiyası əsaslandırılmış qərar qəbul etməlidir. Şikayətin araşdırılması zamanı cinayət əməlinin olması ehtimal edilərsə, bu barədə prokurorluq orqanına məlumat verilir. Müvafiq prokurorluq orqanı həmin məlumata 3 gün müddətində baxmalıdır.

Diqqətə çatdırılıb ki, Seçki Məcəlləsinin 112.10-cu maddəsində seçki komissiyalarına seçkilərin gedişi zamanı seçki hüquqlarının pozulması ilə əlaqədar daxil olmuş şikayət və müraciətlərə baxılması müddəti müəyyən edilib. Qanunvericiliyin tələbinə görə, hər bir şikayət və ya müraciət üzrə qərar 3 gün müddətində, səsvermə gününə 30 gündən az müddət qalırsa, 2 gün müddətində (lakin səsvermə günündən gec olmayaraq), səsvermə günü və yaxud növbəti gün isə dərhal qəbul edilir və şikayətçiyə çatdırılır. Həmçinin seçki komissiyalarının qərarlarından şikayətlərə məhkəmələr 3 gün müddətində, səsvermə gününə 30 gündən az müddət qalırsa, 2 gün müddətində (lakin səsvermə günündən gec olmayaraq), səsvermə günü və yaxud növbəti gün isə dərhal baxmalıdırlar. Məhkəmə qərarından yuxarı instansiya məhkəməsinə şikayət 3 gün müddətində verilə bilər.

Vurğulanıb ki, ekspert rəyi verildikdən dərhal sonra elan olunur və ya növbəti 18 saatdan gec olmayaraq, müvafiq seçki komissiyasının qərarı ilə birlikdə dərc olunur (internet səhifəsində yerləşdirilir), şikayətçiyə çatdırılır və ya göndərilir.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədr müavini Əsgər Novruzov "Seçki hüquqlarının müdafiəsi ilə bağlı qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi" mövzusunda çıxış edərək bildirib ki, Seçki Məcəlləsinin 115-ci maddəsində hansı şəxslər tərəfindən seçki hüququnun pozulmasına görə Azərbaycan Respublikasının Cinayət, Mülki və İnzibati Xətalar məcəllələrinə uyğun olaraq cinayət, mülki və ya inzibati məsuliyyət daşımaları göstərilib və seçki hüququnun pozulmasına və ya məhdudlaşdırılması kimi hesab edilən qanunazidd hərəkətlər sadalanıb. Qanunvericiliyin tələbinə əsasən sadalanan əməllərin xarakteri və ictimai təhlükəlilik dərəcəsinə uyğun olaraq cinayət xarakterli əməllərin törədilməsinə görə məsuliyyət Cinayət Məcəlləsində, inzibati xətalara görə isə məsuliyyət İnzibati Xətalar Məcəlləsində göstərilib. Azərbaycan Respublikası Mülki Məcəlləsinin müddəalarına görə isə sözügedən şəxslər ümumi əsaslarla mülki məsuliyyət daşıyırlar.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikasında konstitusiya nəzarətini Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi təmin etdiyindən Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçirilən seçkilərin nəticələri Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi tərəfindən yoxlanılır və təsdiq edilir. Naxçıvan Muxtar Respublikasında seçkilərin qanunda nəzərdə tutulmuş prinsiplər əsasında keçirilməsinin nəticəsidir ki, bu günədək muxtar respublika Ali Məhkəməsinin icraatına seçki hüquqlarının pozulmasına dair elə bir müraciət daxil olmayıb.

Qeyd edək ki, tədbirdə muxtar respublika üzrə dairə seçki komissiyalarının sədrləri və müavinləri, Şikayətlərin Araşdırılması Komissiyasının üzvləri iştirak ediblər.

✍ Səbuhi HƏSƏNOV

***İstehlakçılara verilən təbii qazın dayanıqlı olması üçün sistemin müasirləşdirilməsi işinin davam etdirilməsi məqsədilə istismarda olan təzyiq və qaztənzimləyicilərin, daşıyıcı və paylayıcı qaz kəmərlərinin, nəzarət-ölçü cihazlarının, digər texnoloji avadanlıqların yenilənməsi istiqamətində Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidməti işlərə nəzarəti daha da artırıb.***

## İstehlakçıların təbii qazla təchizatı diqqət mərkəzindədir



Cari ildə qaz təsərrüfatında istismara yararsız vəziyyətə düşmüş qaz xətlərinin və avadanlıqların müəyyən edilərək yenilənməsinə nəzarət olunub, qazın nəqli zamanı meydana çıxan texniki itki normalarının minimal həddə saxlanılması üçün tədbirlər görülüb, təbii qazdan qanunsuz istifadə hallarına yol verməmək üçün nəzarət gücləndirilib, istehlak olunan qazın dəyərinin tam həcmdə toplanılması təmin edilib, təbii qaz istehlakçılarına əhali və qeyri-əhali qrupundan olan abonentlərə, müəssisə və təşkilatlara (özəl sektora) istehlak olunan təbii qazın dəyərinin ödənilməsi üzrə bildirişlərin, üzləşmə aktlarının və elektron vergi hesab-fakturalarının vaxtında verilməsi təşkil olunub.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2019-2020-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə Ali Məclis Sədrinin Qaz İstismar Xidmətinə verdiyi tapşırıqlara dair görüləcək işlər tədbirlər planı üzrə ardıcıl həyata keçirilib. Xidmət 2019-cu ilin oktyabr ayının 20-dək qaz təchizatı sistemində texniki baxışı yekunlaşdırmaq istiqaməti üzrə mövcud nasazlıqların aradan qaldırılması üçün tədbirlər görüb, təbii qazın şaxtalı hava şəraitində nəqli ilə əlaqədar hazırlıq işlərini vaxtında başa çatdırmaqla istismar üçün yararsız qaz xətlərinin və avadanlıqların müəyyən edilərək yenilənməsini diqqətdə saxlayıb. Qaz sayğaclarına müdaxilənin qarşısını almaq məqsədilə yerlərdə abonent qutularının quraşdırılması işləri davam etdirilib. Qazın nəqli zamanı meydana çıxan texniki itki normalarının minimal həddə saxlanılması üçün tədbirlər görülür, istehlak olunan qazın dəyərinin tam həcmdə toplanılması təmin edilir. Qış mövsümü ilə əlaqədar işçilərin müvafiq geyim və avadanlıqlarla təmin olunması həyata keçirilib.

Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidməti Naxçıvan-Sədərək yüksəktəzyiqli magistral qaz kəmərində qış mövsümündə təzyiqin artırılması məqsədilə Naxçıvan Şəhər Qaz Paylayıcı Stansiyasında yeni Qaz Kompressor Stansiyasının qurulması üçün texniki-iqtisadi göstəricilərin hazırlanması istiqamətində işləri davam etdirir.

**Xəbərlər şöbəsi**

## Ailə təsərrüfatları məhsullarının satışı mağazası açılıb

*Son illər ərzində muxtar respublikada qazanılan iqtisadi uğurlardan biri də diyarımızda yüzlərlə yeni ailə təsərrüfatlarının formalaşmasıdır.*

2019-cu ilin muxtar respublikada "Ailə təsərrüfatları ili" elan olunması isə bu sahəyə marağı daha da artırıb. Ötən dövr ərzində ailə təsərrüfatlarının hərtərəfli fəaliyyəti üçün keçirilən tədbirlərin davamı olaraq muxtar respublikanın şəhər və rayonlarında fəaliyyət göstərən ticarət obyektlərində "Ailə təsərrüfatı məhsulları" guşələri yaradılıb. Yaxın günlərdə isə Naxçıvan şəhərində fəaliyyətə başlayan ailə təsərrüfatları məhsullarının satışı mağazası da paytaxt sakinlərinə nümunəvi xidmətlə yanaşı, muxtar respublikada fəaliyyət göstərən ailə təsərrüfatlarında istehsal olunan məhsulların da satışını həyata keçirir. Bütün bunlar isə muxtar respublikada ailə təsərrüfatlarında istehsal olunan məhsulların çeşidinin və rəqabətqabiliyyətliliyinin stimullaşdırılması ilə yanaşı, istehlakçıların ekoloji təmiz məhsullarla təmin edilməsində də mühüm rol oynayır.



Ailə təsərrüfatı başçısı Şəfəq Ağayevanın dövlət dəstəyi ilə yaratdığı təsərrüfatının bir hissəsi olan mağazada müxtəlif çeşidli şirniyyatlar, meyvə suları, mürəbbələr, meyvə quruları, beş çeşiddə əriştə, xəngəl kimi xəmir məhsulları müştərilərə təqdim edilir.

Qeyd edək ki, mağaza Heydər Əliyev prospektində yerləşən 8-ci binanın birinci mərtəbəsində fəaliyyət göstərir.

✍ Ramiyyə ƏKBƏROVA

Müasirləşən kəndlərimiz

# Soyuq qış günü, zəhmətkeş əllər, isti ürəklər...



*Bazar ertəsi axşam saatlarında aram-aram yağan qar gecədən xeyli keçmiş sürətlənməyə başlasa da, sübh tezdən zəhmətkeş insanların əməyi sayəsində yol kənarlarında tala-tala gözə dəyirdi. Həyətlərdə qar topu oynayan uşaqların yerə-göyə sığmayan sevincinə səbəb olan, böyüklərinsə ruzi-bərəkət adlandırdığı bu qismən "gecikmiş qonaq", xüsusilə çölləri, əkilən əraziləri cana gətirəcək əsl bolluq müjdəçisi idi. Yeni ili yeni görkəmli kəndləri ilə qarşılayan zəhmətkeş böyükdüzlülərin yağan qarın da bəxş etdiyi ikiqat sevinc hisslərini bölüşmək üçün həmin soyuq qış günü səhərin erkən çağında bu yaşayış məntəqəsinə üz tutarkən yolboyu fəslin bənzərsiz mənzərələri gözlərim önündə canlanır. Vətən, torpaq, yurd sevgisi doğma ocaqdan, eldən başlayır, – deyən atalarımızın bu dəyərli sözlərinin mənasını, mahiyyətini iş-güc dalınca tələsən insanları müşayiət edən səliqəli sakinlərin, şütüyən avtomobillərin ləpir saldığı rəvan yolların, abadlaşan, gözəlləşən kəndlərin, zəhmət tərindən yoğurulan, üzərinə ağ yorğan çəkib həzin qış yuxusuna dalan, arzuların, ümidlərin səpildiyi əkin-biçin ərazilərinin timsalında bütün aydınlığı ilə dərk edirəm...*

Deyirlər, keçmişini unudanın gələcəyi olmaz. Böyükdüz kəndinə ayaq basdığım andan ilk olaraq diqqətimi bu yaşayış məntəqəsinin müasirliyi çəksə də, əvvəlcə tarixinə nəzər salmağı özümə mənəvi borc bilirəm. Bununla bağlı aparılan araşdırmalara əsasən deyə bilərəm ki, istər elmi ədəbiyyatlarda, istərsə də xalq arasında "Böyükdüz" adının mənşəyi ilə bağlı müxtəlif maraqlı fikirlər vardır. Tarix üzrə fəlsəfə doktoru Musa Quliyevin "Şərq qapısı" qəzetinin 1988-ci il 28 dekabr tarixli nömrəsində dərc olunan "Böyükdüzün kəhər atları" məqaləsində bu barədə geniş söhbət açılır. Bildirilir ki, məşhur türkoloq alim Mahmud Kaşğari "Divani-lüğət it-türk" əsərində "Buğduz" adlı isə I Böyükdüz nekropoludur. 320 kvadratmetr sahəni əhatə edən nekropoldan antik dövrə aid edilən 50-dən artıq, əsasən, daş qutu qəbirlər aşkar edilib. Ərazidən tapılmış arxeoloji materiallar etnoqrafiyamız haqqında müfəssəl məlumat əldə etməyə imkan verir. Buradan tapılmış insan skeletinin qalıqları isə 1972-ci ildə sərhəd-gözətçi məntəqəsinin zabitləri tərəfindən toplanaraq Naxçıvan Dövlət Tarix Muzeyinə təhvil verilib. Digər qəbirlər isə daşqın zamanı yuyularaq üzə çıxıb.

II Böyükdüz nekropolu isə keçmiş sərhəd-gözətçi məntəqəsinin yerləşdiyi təpədədir. Antik dövrə aid olan bu arxeoloji abidə 1991-ci ildə qeydə alınıb. Buradakı qəbiristanlıq Araz çayının lap yaxınlı-






oğuz tayfası haqqında məlumat vermişdir. XIV əsr tarixçisi Fəzlullah Rəşidəddinin məşhur "Oğuznamə" əsəri də bu barədə dəyərli fikirlərlə zəngindir. Həmin kitabda oğuzların tarixi geniş təsvir olunur. Tarixçi oğuzları iki qrupa – Bozok və Üçok tayfalarına ayırıb. Üçok tayfası belə səciyyələndirilir: Göy xanın oğlanları, Dağ xanın oğlanları və Tengiz (Dəniz) xanın oğlanları. Dəniz xanın ikinci oğlunun adı Böyükdüzdür. Həmin kitabda Böyükdüzün başqa igidlərə nisbətən çox humanist və hörmətli olduğu qeyd edilir.

Böyükdüz adına Əbdül Qazi xan Xivəlinin və rus şərqşünaslarının əsərlərində də rast gəlinir. Ehtimal ki, Oğuz xanın nəvəsi Böyükdüz adı bu gün Kəngərli rayonunda yerləşən "Böyükdüz" toponimində yaşayır. Çoxları elə zənn edir ki, bu yerdə geniş sahə olduğu üçün Böyükdüz adlandırılıb. Deyilənə görə, hətta vaxtilə bu kəndin adının dəyişdirilməsi təşəbbüsü də olmuşdur. Lakin akademik Budaq Budaqovun dediyi kimi: "Coğrafi ad hər bir xalqın milli hissləri ilə bağlıdır. Buna görə də toxunulmaz və müqəddəs olmalıdır".

"Naxçıvan Ensiklopediyası"nda qeyd olunur ki, ərazidəki köhnə Böyükdüz yaşayış yeri Son Tunc və İlk Dəmir dövrlərinə aiddir. 1973-cü ildə tədqiq edilən həmin yer hazırda Araz Su Anbarının altında qalıb. Tədqiqatlar zamanı buradakı uzunsov təpədən tapılan nümunələr qorunması üçün Naxçıvan Dövlət Tarix Muzeyinə verilib. Kəndin tarixindən söhbət açan digər arxeoloji abidə ğında yerləşdiyindən qəbirlərin çoxu yuyularaq dağılıb, yalnız bir qismi salamat qalıb. Həmin ərazidən məişətdə istifadə edilən müxtəlif əşyalar da aşkar olunub.

Böyükdüz kəndində yaşayan tarix üzrə fəlsəfə doktoru Musa Quliyevin yaşayış məntəqəsi barədə qələmə aldığı elmi-publisistik məqalələrə istinad edərək demək olar ki, 1925-ci ildə Şahtaxtı kəndində Daşçı Rüstəm adlanan şəxsin (Həmin şəxs Şahtaxtı kəndindəki travertin karxanasında daşyonan işlədiyi üçün sakinlər ona bu adla müraciət edirmiş) başçılığı ilə bir neçə ailə "Qarğalıq" dəmiryol stansiyasının yaxınlığında yerləşən Saqqallama yüksəkliyinin yanına köçüblər. Köçənlərin əksəriyyəti o dövrdə adıçəkilən dəmir yolu stansiyasında çalışıblar. Həmin yaşayış məskəninin xarabalıqları hazırda qalmaqdadır. 1927-1929-cu illərdə ailələr daha münbit və əlverişli əraziyə köçərək yeni kənd salmağa müvəffəq olur və məlumatsızlıqdan yerin relyef quruluşunu əsas götürərək adını Böyükdüz qoyurlar. Həmin yaşayış məntəqəsi Araz çayının yaxınlığında yerləşdiyi üçün münbit torpaq sahələri çox olub, sakinlər əkin-biçin işləri ilə məşğul olaraq öz dolanışıqlarını təmin ediblər. Kəndin inzibati idarələri ərazidə yerləşən dəmiryol körpüsündən solda tikilib. İkinci Dünya müharibəsi illərində və sonralar sakinlər daha əlverişli ərazi sayılan Üç Təpə yaxınlığına köç edib, burada özlərinə yaşayış şəraiti yaradıblar. Araz çayı üzərində Su Elektrik Stansiyası tikildikdən sonra suyun altında qalmaq təhlükəsi olduğundan Böyükdüz kəndi 1969-cu ildə indiki ərazisinə köçürülüb. 1971-ci ildə kənddə 8 illik natamam orta məktəb, 1980-ci ildə isə 10 illik orta məktəb yaradılıb.

Bütün bunlar deməyə əsas verir ki, Böyükdüz kəndinin yaranması haqqında hələ aşkar edilməyən dəyərli faktlar çoxdur və bununla bağlı dərin araşdırmaların aparılmasına ehtiyac vardır...

Müstəqillik illərində qədim yaşayış məskəni müasir simasına qovuşub, 2004-cü il martın 19-da yeni yaradılan Kəngərli rayonunun tərkibinə daxil edilən kəndin məktəbi 2006-cı ildə əsaslı şəkildə yenidən qurulub, birmərtəbəli binaya daha bir mərtəbə əlavə olunub. Bundan başqa, burada yeni kənd mərkəzi, həkim ambulatoriyasının binaları istifadəyə verilib, yerli dövlət qurumları üçün lazımi şərait yaradılıb. Son illər kənddə məskunlaşmanın xeyli artması əlavə infrastrukturun qurulmasını şərtləndirib və ötən ilin ortalarından etibarən yaşayış məntəqəsində kompleks quruculuq tədbirləri həyata keçirilib...

2019-cu il dekabrın 28-də – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ərəfəsində Böyükdüz kəndinin sakinlərinə gözəl bayram hədiyyəsi bəxş olundu. Yaşayış məntəqəsində tam müasir üslubda, hərtərəfli şəraitlə təmin edilmiş kənd və xidmət mərkəzləri, məktəb binası, həkim ambulatoriyası, eləcə də hər fəsildə sakinlərin gediş-gəlişinə, avtomobillərin rahat hərəkətinə imkan yaradacaq gözəl infrastruktura malik yeni yol istifadəyə verildi.

Məktəbin direktoru Solmaz Quliyeva Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ***"Təhsilə qoyulan sərmayə ölkənin gələcəyinə qoyulan sərmayədir"*** fikrini xatırladaraq deyir ki, bu gün istənilən yaşayış məntəqəsinə üz tutsaq, orada innovativ tədris avadanlıqları ilə təchiz olunmuş gözəl, yaraşıqlı məktəb binası ilə qarşılaşarıq. Böyükdüzdə 2006-cı ildə yeni məktəb binası istifadəyə verilsə də, zaman keçdikcə, dövr dəyişdikcə ən yeni texnologiyaların tədrisə sirayət etməsi, şagirdlərin sayının ilbəil çoxalması tələbatı artırırdı. Bütün bunlar nəzərə alınaraq məktəbimizə yeni korpus əlavə edildi, həm siniflərin sayı artdı, həm də müasir dövrün tələbinə uyğun avadanlıqlar quraşdırıldı. Yeni korpusda şahmat sinfi və bufetin istifadəyə verilməsi də uşaqların sevincini birə-beş artırdı. İndi onlar həm bu zəka idman növü üzrə biliklərə dərindən yiyələnir, həm də dərslərarası fasiləni daha səmərəli keçirə bilirlər. Bundan əlavə, yeni qazanxana sisteminin quraşdırılması otaqların normal temperaturda olmasına imkan verir ki, bu da, təbii ki, təhsilin keyfiyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdırır.

Böyükdüzdə baş çəkdiyim digər bir sosial obyekt isə sakinlərin sağlamlığı keşiyində dayanan həkim ambulatoriyasıdır. Ambulatoriyanın baş həkim əvəzi Gözəl Babayeva deyir ki, 2006-cı ilədək bu kənddə sovet dönəmindən qalma yararsız balaca köşkdə primitiv metodlara əsaslanan feldşer-mama məntəqəsi fəaliyyət göstərib. O zaman sakinlər sağlamlıqla bağlı problemlərinin həlli baxımından da çox əziyyət çəkiblər. 2006-cı ildə isə 4 otaqdan ibarət həkim ambulatoriyası yaradılsa da, şərait indiki qədər ürəkaçan deyildi. Yenicə qədəm qoyduğumuz 2020-ci ildə isə biz səhiyyə işçilərinə, ümumilikdə isə bütün böyükdüzlülərə böyük bir hədiyyə bəxş olundu. Yeni tibb müəssisəsinin imkanları barədə onu deyə bilərəm ki, otaqların sayı 9-a çatdırılıb, əvvəllər stomatoloji kabinəmiz yox idi, indi var. Ambulatoriyada aptekin fəaliyyətə



başlaması, burada bəzi dərmanları lazımi temperaturda saxlamaq üçün soyuducunun quraşdırılması sakinlərin uzaq məsafə qət etmədən istədikləri preparatları keyfiyyətli şəkildə əldə etmələrinə imkan verir. Uşaqların vaxtlı-vaxtında peyvənd olunması üçün yaradılan şərait gələcəyimizin etibarlı, sağlam təməllər üzərində qurulmasına xidmət edir. Biz tibb işçiləri çalışacağıq ki, yaradılan bu gözəl şəraitdən səmərəli istifadə edib, insanların sağlamlığı keşiyində daha qətiyyətlə dayanaq.

Həkim ambulatoriyasından çıxıb kənd mərkəzinə doğru irəlilədikcə söhbət edə-edə iş-güc dalınca tələsən bir neçə kənd sakini diqqətimi çəkir. Yaxınlaşıb hal-əhval tuturam. Onlardan yaşı 50-ni haqlamış, müharibə veteranı İlyas Osmanov söhbət zamanı keçdiyi döyüş yoluna nəzər salır, yaşayış məntəqəsinin bugünkü növrağından könüldolusu danışır:

– Doğru deyiblər, birlik, inam, zəhmət və cəsarət olan yerdə uğur qazanmaq çətin deyil. Sadalanan xarakterik xüsusiyyətləri ilə seçilən xalqımız ötən əsrin 90-cı illərində ağrı-acılara, məşəqqətlərə qarşı əyilməz əzm, birlik göstərərək möhkəm iradə və inam sayəsində taleyin ağır sınağından üzüağ çıxdı. Öz məkrli planlarını həyata keçirmək xülyası ilə yaşayan ermənilərin gözlərini diyarımız Naxçıvana dikilən gözləri mü-



bariz oğullarımız tərəfindən kor edildi. O illərdə hər kəsin ürəyi səngərdə gecə-gündüz doğma yurdumuza keşik çəkən, son damla qanlarına qədər döyüşməyə hazır olan Vətən fədailəri ilə döyünürdü. Həmin vaxt mənimlə çiyin-çiyinə vuruşan cəbhə yoldaşlarımdan bəziləri şəhidlik zirvəsinə ucaldı, bəziləri isə veteran adını qazandı. Çəkdiyimiz əzablara baxmayaraq, ümidimizi, inamımızı itirmədik, o zaman Naxçıvanda olan ümummilli liderimiz Heydər Əliyevin ətrafında sıx birləşərək dahi rəhbərin uzaqgörən siyasəti, verdiyi dəyərli tövsiyələri ilə həmin bəlalardan xilas olduq. Müstəqillik əldə edəndən sonra biz veteranlara qarşı həm insanlar, həm də dövlətimiz tərəfindən böyük ehtiram, həssas münasibət göstərildi, hərtərəfli qayğı gördük. Şəxsən mənim özümə bu kənddə ev verildi, rahatlığım üçün avtomobil hədiyyə olundu. Bu gün sakinlərin böyük inamını qazanan dövlətimiz hər birimizin sosial vəziyyəti ilə yaxından maraqlanır, problemlərimiz vaxtlı-vaxtında həllini tapır.

İlyas kişi onu da deyir ki, Naxçıvanın əksər yaşayış məntəqələrini gəzdiyim üçün həmin yerlərdə yüksəlişin, qurulan şəraitin də yaxından şahidiyəm. Kəndlərdə inşa olunan müasir obyektlərdə insanların rifahı üçün yaradılan imkanları gördükcə qurub-yaradan əllər var olsun, – deyirəm. Böyükdüz kəndi də müstəqillik illərində dövlətimizin qayğısı ilə əhatə olunub. Sevindirici haldır ki, yeni ildən bizim kənddə də məktəb, kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası müasir görkəminə qovuşub, yolumuz abadlaşıb. Övladlarımız yüksək tədris şəraitinə malik məktəbdə oxuyur, biz kənd sakinlərinin sosial qayğıları isə tamamilə aradan qalxıb. Kəndimizdə qapalı suvarma şəbəkələrinin qurulması, əkinəyararlı sahələrin bolluğu insanları təsərrüfat fəaliyyətinə daha da həvəsləndirir. Mən də yaradılan münbit şəraitdən istifadə edərək ailə üzvlərimin də köməkliyi ilə təsərrüfat yaratmışam, həm pay, həm də icarəyə götürdüyümüz torpaqlarda noxud, günəbaxan, qarğıdalı, soğan və tütün becəririk. İstehsal etdiyimiz məhsulları həftəsonu Naxçıvan şəhərində keçirilən kənd təsərrüfatı məhsullarının satışı yarmarkalarında sərfəli qiymətə sata bilirik. Ötən il "Ailə təsərrüfatı məhsulları" festivalında da iştirak edərək özümüzə geniş alıcı qüvvəsi qazanmışıq. Gələcəkdə təsərrüfatımızı daha da genişləndirmək fikrindəyik. Bir müharibə veteranı kimi yaradılan gözəl şəraitə görə dövlətimizə minnətdarlıq edirəm.

Böyükdüz kəndində diqqətimi çəkən məqamlardan biri də son illərdə təsərrüfat işlərində kişilərlə yanaşı, qadınların da fəallıq göstərməsidir. Qadın ailə təsərrüfatçısı Aynur Əhmədova da bir neçə ildir, təsərrüfatla məşğul olur, istehsal etdiyi məhsulları festivallara, satış yarmarkalarına çıxarır. O, ötən il Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə BMT-nin İnkişaf Proqramı tərəfindən icra olunan gender həssaslı proqram əsasında Azərbaycan Mikromaliyyə Assosiasiyası tərəfindən reallaşdırılan "Qadınların dayanıqlı inkişaf üçün səlahiyyətləndirilməsi" adlı layihəyə fəal təsərrüfatçı kimi qatıldığı üçün maddi vəsaitlə təmin olunub. Göstərilən dəstəyin müqabilində 7 baş xırdabuynuzlu heyvan alaraq öz təsərrüfatını genişləndirib. Gələcəkdə muxtar respublika iqtisadiyyatının inkişafına töhfələr vermək üçün daha səylə çalışacağını deyən Aynur xanım qadın təsərrüfat sahibləri adından dövlətimizə minnətdarlıq edir.

*Qədim və maraqlı tarixçəsi, zəngin əkinçilik ənənələri ilə hər zaman, sözün yaxşı mənasında, ad çıxaran Böyükdüz kəndi bu gün həm də gözəl, yaraşıqlı siması ilə buraya yolu düşənləri heyran qoyur. Təəssüratlarım belə deməyə əsas verir ki, ilin hər fəslində kənd camaatının zəhmətkeş əlləri xoşbəxt gələcək üçün qurub-yaradarkən isti ürəkləri də daha firavan günlərin arzusuyla döyünür...*

**Nail ƏSGƏROV**

Təhsil millətin gələcəyidir

## Təhsilə göstərilən qayğı bizi daha da ruhlandırır

*Hər dəfə gənclərin uğurlarından söhbət düşəndə, haqlı olaraq, onların təhsil pillələrində atdığı ilk addımlarda böyük pay sahibi olan müəllimləri, bu dəyərli insanların əməyini ehtiramla yada salırıq. Həyatda harada yaşamağından, hansı vəzifə tutmağından asılı olmayaraq, hər bir kəs üçün məktəb illəri, burada qazandığı dostlar və şübhəsiz, onları ərsəyə gətirən müəllimlər həmişə dəyərli olub, şirin bir xatirə kimi ürəklərdə yaşayır. Bu mənada, təkcə muxtar respublikamızın deyil, ölkəmizin qabaqcıl təhsil ocağı olan Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəb də qabaqcıl təhsil ənənələri ilə gələcəyimiz olan gənc nəslin bilik və bacarıqlar əldə etməsi, Vətənə məhəbbət və dövlətçiliyimizə sədaqət ruhunda tərbiyə olunması yolunda böyük uğurlar qazanıb. Çəkilən zəhmətə dövlətimiz tərəfindən verilən yüksək qiymət isə bu təhsil ocağının kollektivini daha böyük uğurlara aparan amil kimi hər kəsi sevindirir.*



Aynur Abbasova haqqında danışdığımız məktəbin təcrübəli müəllimlərindəndir. O, işlədiyi təhsil ocağının tədris ənənələrini uğurla davam etdirir, dərs dediyi şagirdlərin təlim-tərbiyəsinə ciddi fikir verir. Ümumilikdə, 22 ilə yaxın olan pedaqoji fəaliyyəti dövründə Azərbaycan dili və ədəbiyyatı fənnini tədris edərək o, həmişə şagirdlərə doğma dilimizi və ədəbiyyatımızı sevdirməyə çalışıb. Bütün elmləri öyrənməyin yolunun məhz ana dilini mükəmməl bilməkdən keçdiyini, bunun üçün onun hər cür incəliklərini öyrənməyi, çoxlu mütaliə edib, söz ehtiyatını zənginləşdirməyi əsas tələblər kimi şagirdlərə aşılayır. Nəticələr isə ürəkaçandır. Məktəbdən hər il məzun olan gənclərin, demək olar ki, hamısının ölkəmizin və muxtar respublikamızın yüksəkreytinqli ali məktəblərinə daxil olması, onların daha sonrakı həyat və fəaliyyətlərində qazandıqları uğurlar kollektivi ürəkdən sevindirir. Bütün bunlar isə, şübhəsiz, ölkəmizin gələcəyi olan gənc nəslin hərtərəfli inkişafına göstərilən dövlət qayğısı olmadan mümkün deyildir.

Çalışdığı məktəbin təkcə muxtar respublikamızın deyil, ölkəmizin qabaqcıl təhsil ocaqlarından biri olduğunu və bunun da onlarda ikiqat məsuliyyət yaratdığını deyən Aynur Abbasova digər müəllim yoldaşları kimi yetirmələrinin uğurları ilə həmişə fəxr edir. Təhsil ocağına baş çəkdiyimizdə bizimlə fikirlərini bölüşən Aynur müəllimə bu tədris ilinin birinci yarısının onun üçün, xüsusilə əlamətdar olduğunu qeyd etdi. Bildirdi ki, Ali Məclis Sədrinin 2019-cu il 4 oktyabr tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi" fəxri adı verilmiş bir qrup təhsil işçisi arasında onun da adı var. Bu, ümumilikdə, bütün kollektivin əməyinə verilən yüksək qiymət kimi hər kəsin sevincinə səbəb olub. O, bu sevincini məktəbin, təxminən, 1300-ə yaxın şagirdinin təlim-tərbiyəsi ilə məşğul olan yüzdən çox müəllim yoldaşı ilə bölüşməklə göstərilən diqqət və qayğıya görə bir daha dövlətimizə dərin minnətdarlığını ifadə etdi.

Aynur Abbasova yenilikçi müəllimdir. O, müasir dövrdə tədris prosesində tətbiq olunan mütərəqqi üsullardan istifadənin şagirdlərin mövzuları qavramasında müsbət nəticələr verdiyini deyir. Çalışdığı məktəbdə bu sahədə yaxşı təcrübə formalaşdığını da dilə gətirir. Məktəbdə belə təcrübəli müəllimlərin olması isə gənc müəllimlər üçün yaxşı nümunədir. Başqa cür ola da bilməz. Axı təhsil cəmiyyətdə toplanmış bütün elmi biliklərin gənc nəslə öyrədilməsi kimi məsuliyyətli bir sahədir. Belə ki, elmin sürətli inkişafı bu gün qazanılan dünyagörüşün sabah daha da artırılmasını tələb edir. Məhz bu baxımdan müəllim ömrü bitib-tükənməyən bir şam kimi şölələnib ətrafını aydınlatdıqca sabaha açılan yollar daha da nurlu olur. Həyatını elmə, təhsilə həsr etmiş qabaqcıl maarifpərvər insanların bütün ömrü boyu sərf etdikləri fədakar əməyin mükafatı da, əslində, bu nur, bu işıqdır, – deyir Aynur müəllimə.

Dilimizin və ədəbiyyatımızın geniş imkanlarından da bəhs edən Aynur Abbasova bir qənaəti də bizimlə bölüşüb bildirdi ki, müasir dünya nə qədər qloballaşsa da, dilimizin saflığını, onun gözəlliklərini qorumaq hər kəsin borcudur. İndi müasir sürətli texnologiya əsri olsa da, həmıləqla Şah İsmayıldan, Aşıq Ələsgərdən, Məmməd Arazdan bizə miras qalmış ədəbi dilimizin gözəlliyini və axarını, nənələrimizdən eşitdiyimiz laylaların şirinliyini qoruyub saxlamaq lazımdır. Müstəqil ölkəmizin iqtisadi-mədəni inkişaf səviyyəsi artdıqca milli atributumuz olan dilimizin də imkanlarının genişlənməsi üçün əlverişli şərait yaranır. Odur ki, şagirdlərə indi dünyaya inteqrasiya olunduğumuz bir vaxtda Azərbaycan dilini daha dərindən öyrənməyin, bu dildə yazıb-yaratmağın nə qədər vacib olduğunu mənimsətmək bizim vəzifəmizdir. Qoy gələcəyimiz olan gənclərimiz də zəmanəmizin ən böyük Azərbaycanlısı, ulu öndər Heydər Əliyev kimi öz doğma dilini dərindən sevsin, bütün həyatı boyu bu amalla yaşayıb, onun inkişafı üçün çalışsınlar.

**Əli CABBAROV**

## Test imtahanları başa çatıb

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən dövlət ümumi təhsil müəssisələrinə işə qəbul üçün 6 noyabr 2019-cu il tarixdə elan edilmiş müsabiqənin test imtahanları 9-24 yanvar 2020-ci il tarixlərdə keçirilib.*



Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 14 aprel tarixli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında müəllimlərin dövlət ümumi təhsil və peşə təhsili müəssisələrinə işə qəbulu, bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması Qaydaları"na müvafiq olaraq müəllimlərin işə qəbulu üçün elan olunmuş müsabiqədə orta ixtisas və ali təhsil müəssisələrini pedaqoji ixtisaslar üzrə bitirmiş və dövlət nümunəli təhsil sənədi almış, habelə xarici ölkədə aldığı təhsil sənədi qanunvericiliklə müəyyən edilmiş qaydada tanınmış muxtar respublikada yaşayan Azərbaycan Respublikasının vətəndaşları iştirak ediblər.

229 vakant vəzifə çıxarılmış müsabiqəyə 130 vəzifənin tutulması üçün 283 nəfər sənəd təqdim etmişdi. Test imtahanlarında 266 namizəd iştirak edib, 131 nəfər müvafiq keçid balını toplayıb.

Ən çox müsabiqə vəziyyəti İbtidai sinif müəllimliyi (44), İnformatika (38), İngilis dili (33), Azərbaycan dili (29) və Fiziki tərbiyə (29) ixtisasları üzrə qeydiyyata alınmışdı.

Test imtahanında iştirakçılara ixtisas üzrə ümumi fənn proqramına uyğun 40, metodika və təlim strategiyaları üzrə 25, informasiya texnologiyaları üzrə 15 sual olmaqla, 80 sual təqdim edilib, namizədlərə test suallarını cavablandırmaq üçün 120 dəqiqə vaxt verilib.

Qanunvericiliyə əsasən stimullaşdırıcı tədbirlər tətbiq olunan müəssisələrə işə qəbul üçün test tapşırıqlarının 55 faizini (44 bal), digər müəssisələrə işə qəbul üçün test tapşırıqlarının 75 faizini (60 bal), təsviri incəsənət, fiziki tərbiyə fənləri üzrə işə qəbul, o cümlədən rus bölməsində müəllim işləmək üçün test tapşırıqlarının 50 faizini (40 bal) düzgün cavablandırmış namizədlər keçid balını toplamış hesab ediliblər. Vakant vəzifənin tutulması üçün müvafiq keçid balını toplamış namizədlərin sənədləri təyinat üçün Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinə göndəriləcəkdir.

Obyektivliyin və şəffaflığın tam təmin edilməsi məqsədilə imtahanların videoçəkilişi aparılıb. İmtahan bitdikdən dərhal sonra iştirakçılara nəticəyə dair arayış təqdim edilib. Nəticələr Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın rəsmi internet portalında *(www.dqmk.nmr.az)* yerləşdirilib.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## Yeniliklər tətbiq olunur



*2019-2020-ci tədris ilinin qış semestrində Naxçıvan Dövlət Universitetində imtahanlar gün ərzində 55-60 olmaqla, 1100-1200 tələbənin iştirakı ilə keçirilir. Tələbələr elektron qayda ilə yanaşı, yazılı qaydada da imtahan verirlər.*

Yazılı imtahanların keçirilməsi üçün xüsusi nəzarət sistemi tətbiq olunan otaq ayrılıb. Bundan başqa, xüsusi qabiliyyət tələb edən ixtisaslarda imtahanların şifahi qaydada keçirilməsi nəzərdə tutulub. Şifahi imtahanlar müvafiq kafedralar tərəfindən razılaşdırılmış qaydada fakültə daxilində keçirilir. Semestr ərzində cəmi 22437 tələbənin iştirakı ilə 1263 sayda keçirilməsi planlaşdırılan imtahanların 515-i yazılı, 748-i isə elektron qaydada aparılır.

2012-ci ildən etibarən keçirilən elektron imtahanlar bu semestr 6 elektron və 6 yazılı olmaqla, kamera ilə təchiz edilmiş 12 otaqda keçirilir.

Yazılı imtahana 3-4, elektron imtahana isə 2 nəfər olmaqla, universitet əməkdaşlarından ibarət imtahan komissiyasının üzvləri nəzarət edirlər. İmtahanlara ümumi nəzarət üçün isə 6 nəfərdən ibarət imtahan qərargahı yaradılıb.

Qeyd edək ki, bu günədək elektron test üsulu ilə keçirilən imtahanlar şəffaflığın gözlənilməsi, tələbələrin öz biliklərini operativ şəkildə ortaya qoyması, obyektiv qiymətləndirmə baxımından böyük üstünlükləri ilə özünü doğruldub. İmtahan zallarında quraşdırılan veb-kameralar şəffaflığın ən bariz nümunəsi hesab oluna bilər. Tələbələr müəyyən olunmuş vaxt ərzində kompüterin köməyi ilə 50 sualı cavablandırır. Nəzarətçilər imtahanın başlaması və bitirməsi təsdiqləndikdən sonra tələbə imtahan nəticələri ilə bağlı məlumatı dərhal əldə edə bilir. Hər test sualı üçün 1 bal, yazılı imtahan üçün 10 ballıq qiymətləndirilmə tətbiq olunur.

Onu da vurğulayaq ki, imtahanların gedişində ciddi texniki problemlərə, xoşagəlməz hallara rast gəlinərsə, tələbənin şikayətinə baxılması və obyektiv həlli məqsədilə apellyasiya komissiyası yaradılıb. Gələcəkdə tədris edilən fənlərin keyfiyyətini daha da yüksəltmək üçün imtahan suallarının artırılması və təkmilləşdirilməsi nəzərdə tutulub.

Builki imtahanlarda əvvəlkilərdən fərqli olaraq tələbələr imtahanların yazılı və test üsulu ilə olması haqqında bilgilərə əvvəlcədən tanış olur, daha rahat və asan hazırlaşmaq imkanı əldə edirlər. Qeyd olunan yenilik bir də ondan ibarətdir ki, tələbələr universitetin "Facebook" səhifəsində yerləşdirilən linkdən istifadə edərək imtahanın nəticələrini öyrənə bilir, universitetin saytında e-cədvəl bölməsinə daxil olmaqla, dərs, kollokvium, imtahan cədvəlləri, sualları və imtahan nəticələri barədə məlumat almaq imkanı qazanır. Eyni zamanda səhifədə yaradılan "Rektora müraciət" bölməsinə daxil olan hər bir tələbə imtahanlarla bağlı sual, təklif və şikayətlərini birbaşa rektora ünvanlaya bilir.

**Səadət ƏLİYEVA**

## Tədbir keçirilib

***Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanasında şair, dramaturq, publisist Adil Babayevin anadan olmasının 95 illik yubileyinin qeyd olunması məqsədilə tərtib edilmiş tədbirlər planına əsasən keçirilən "Adil Babayev həftəsi" başa çatıb.***

Şair-dramaturqun adını daşıyan kitabxanada ilk olaraq "Adil Babayev-95" başlıqlı sərgi təşkil edilib, həftə ərzində kitabxanaya müraciət edən hər bir məktəbli ilə adibin həyat və yaradıcılığı barədə söhbətlər aparılıb, onlara müəllifin əsərlərinin mütaliə edilməsi tövsiyə olunub. Tədbirlərin davamı kimi Naxçıvan şəhərindəki Heydər Əliyev adına, həmçinin 12 və 14 nömrəli tam orta məktəblərdə müəllifin "Babəkdən sonra" poemasının müzakirələri keçirilib və məktəblilərlə Adil Babayevin həyat və yaradıcılığı haqqında ətraflı söhbətlər aparılıb. Tədbirlər planına uyğun olaraq kitabxanada "Adil Babayev: şair, dramaturq, publisist" mövzusunda dəyirmi masa, müəllifin şeirləri əsasında gecə təşkil olunub.

**Xəbərlər şöbəsi**

## İcbari tibbi sığortanın tətbiqi uğurla davam etdirilir



*Dünən "Culfa rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 16 yanvar tarixli Sərəncamından irəli gələn məsələlərin icrasını təmin etmək üçün Culfa Rayon Mərkəzi Xəstəxanası publik hüquqi şəxsində çalışan tibb işçiləri üçün maarifləndirici tədbir keçirilib.*

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Səhiyyə nazirinin müavini Samrat Gəncəyeva açıb. O, Culfa rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı qarşıya qoyulan tapşırıqların və adıçəkilən sərəncamın icrası istiqamətində görülən işlərdən danışıb.

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin direktoru Samiq Sadıxov çıxışında bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq fərman və sərəncamlarına uyğun olaraq icbari tibbi sığortanın tətbiqi məqsədilə rayonlardakı mərkəzi xəstəxanalarda və icbari tibbi sığortanın tətbiqində iştirak edən digər səhiyyə müəssisələrində agentliyin qeydiyyat məntəqələri yaradılıb və fəaliyyətləri təmin edilib. Əhalinin sığortalanması prosesi həyata keçirilib və müraciət edən şəxslərlə sığorta müqaviləsi bağlanaraq onlara icbari tibbi sığorta şəhadətnaməsi verilib.

Qeyd olunub ki, ötən dövrdə əldə olunmuş uğurlu nəticələrə əsasən icbari tibbi sığortanın əhatə dairəsi genişləndirilərək Culfa rayonunda da tətbiq edilməsi üçün verilən tapşırıqların icrasını təmin etmək məqsədilə lazımi hazırlıq işləri həyata keçirilib. Belə ki, xəstəxanada yenidənqurma və təmir-bərpa işləri görülüb, müvafiq palatalarda mərkəzi oksigen sistemi qurulub, fiber-optik xətlər vasitəsilə internet şəbəkəsi, mərkəzi server qurularaq "Medisoft" Səhiyyə informasiya idarəetmə sistemi yaradılıb. Hazırda xəstələrin qeydiyyatı həmin sistem vasitəsilə aparılır. Xəstəxananın Təcili tibbi yardım şöbəsi yenidən təşkil edilib, göstərilən tibbi xidmətin keyfiyyətini yüksəltmək məqsədilə ən müasir tibbi cihaz və avadanlıqlar alınaraq quraşdırılıb.

Culfa rayonunun icbari tibbi sığortanın tətbiqinə tam hazır olması və çatışmazlıqların yerində həll edilməsi məqsədilə keçirilmiş təlim və seminarlarda tibb işçilərinə Səhiyyə informasiya idarəetmə sistemi, göstəriləcək tibbi xidmətlər, tibbi xidmətlərə dair aylıq hesabatların tərtib olunma qaydaları izah edilib, nümunəvi hesabat formaları təqdim olunub və tibb işçilərini maraqlandıran suallar cavablandırılıb.

Vurğulanıb ki, Culfa Rayon Mərkəzi Xəstəxanasında icbari tibbi sığortanın baza zərfinə daxil olan 1525 adda tibbi xidmətdən 638-i icra ediləcək, qalanları isə digər tibb müəssisələri tərəfindən həyata keçiriləcəkdir.

Sonra çıxışlar dinlənilib, suallar cavablandırılıb.

***

Anoloji tədbir Babək rayonunda da keçirilib.

***Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi***

## İdman federasiyalarında yığıncaqlar keçirilib



*Dünən Naxçıvan Muxtar Respublikası Atıcılıq Federasiyasında ötən ilin yekunları və qarşıda duran vəzifələrlə bağlı yığıncaq keçirilib.*

Yığıncağı giriş sözü ilə açan federasiyanın sədri Səhət Həbibbəyli bildirib ki, muxtar respublikada atıcılıq idman növünün inkişaf etdirilməsi, bu sahədə kütləviliyin artırılması üçün 2019-cu ilin əvvəlində Naxçıvan Muxtar Respublikası Atıcılıq Federasiyasının tədbirlər və təqvim planı təsdiqlənib. Tədbirlər planına uyğun olaraq ötən il ərzində Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə birgə 13 idman yarışı keçirilib. Stend yarışlarında 59, TİR atıcılığı yarışlarında 123, peyntbol üzrə birinciliklərdə 230 və çoxnövçülük üzrə 80, ümumilikdə, 492 idmançı yarışlarda mübarizə aparıb.

Federasiya sədri diqqətə çatdırıb ki, geridə qoyduğumuz il atıcılıq idman növünün muxtar respublikada təbliği, rayonlarda atıcılıq üzrə klubların yaradılması, idman infrastrukturunun yenidən qurulması və yeni avadanlıqların alınması istiqamətində mühüm işlər görülüb. Atıcılıq mərkəzinin peyntbol meydançasında maneələr yenidən qurulub, stend atışı üçün meydança müasir tələblərə uyğunlaşdırılıb, TİR atıcılığı üçün yeni maneələr quraşdırılıb, müasir görkəmi ilə seçilən kafe istifadəyə verilib, ərazidə abadlaşdırma işləri aparılıb.

Naxçıvan şəhərindəki Atıcılıq əyləncə mərkəzi yenidən təmir olunub, TİR atıcılığı üçün yeni maneələr quraşdırılıb, yeni oyun qurğuları alınıb. Şərur şəhərindəki Atıcılıq mərkəzinin fəaliyyəti yenidən təşkil olunub. Naxçıvan şəhərində fəaliyyət göstərən "Hədəf" və "Qələbə" Atıcılıq idman klubları ilə yanaşı, Şərur şəhərində "Ümid", Culfa şəhərində "Uğur" və Kəngərli rayonunun Qıvraq qəsəbəsində "Zəfər" Atıcılıq idman klubları təsis edilib və onların idmançılarının muxtar respublika səviyyəli yarışlarda iştirakları təmin olunub.

Vurğulanıb ki, qızların atıcılıq idmanına cəlb olunması istiqamətində işlər görülüb, təşkil olunmuş tədbirlərdə 25 qız idmançının iştirakı təmin edilib. Federasiya tərəfindən keçirilən yarışlarda iştirak edənlərin nəticələri nəzərə alınaraq atıcılığın müxtəlif növləri üzrə "Naxçıvan" komandasının tərkibi müəyyənləşdirilib, onlar təlim-məşq toplanışlarına cəlb olunublar. Ötən ilin iyun ayında Sumqayıt Paralimpiya İdman Kompleksində təşkil olunan Yeniyetmələrin 12-ci respublika oyunlarında atıcılıq növündə muxtar respublikanın "Naxçıvan" komandası komanda hesabı üzrə, idmançımız Əsgər Cavadov isə şəxsi hesabda qalib adını qazanıb.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman naziri Azad Cabbarov çıxışında bildirib ki, Naxçıvanda idmanın inkişafına və idmançılara göstərilən qayğı yüksək səviyyədədir. Bunun ifadəsidir ki, diyarımızda gənc və yeniyetmələrin idmanın müxtəlif növlərinə marağı günü-gündən artmaqdadır. Qürurvericidir ki, Naxçıvan idmançıları respublika səviyyəli yarışlarda 179, beynəlxalq miqyaslı turnirlərdə 165, dünya səviyyəli yarışlarda 5, Avropa çempionatlarında 20 olmaqla, ümumilikdə, muxtar respublikadan kənar yarışlarda 369 medal qazanıblar.

Azad Cabbarov vurğulayıb ki, muxtar respublikada uğurla fəaliyyət göstərən idman federasiyalarından biri də 2013-cü ildə yaradılan Atıcılıq Federasiyasıdır. Federasiyanın bölmə və qruplarında idmanın bu növü ilə 13 qrupda 195 nəfər məşğul olur. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi Atıcılıq Federasiyası ilə birgə idmanın bu növünü inkişaf etdirmək və kütləviliyinin təmin edilməsi məqsədilə çoxsaylı tədbirlər həyata keçirib. Belə ki, federasiyada struktur dəyişikliyindən sonra Atıcılıq mərkəzində təmir-bərpa işləri aparılıb. Federasiya idmançılarının asudə vaxtlarının səmərəli təşkili məqsədilə onların muxtar respublikada fəaliyyət göstərən muzeylərə gəzintiləri və Ağbulaq İstirahət Mərkəzində Yay məktəbləri təşkil olunub.

Yığıncaqda 2020-ci ildə görüləcək işlər və keçiriləcək tədbirlər barədə məlumat verilib.

* * *

*Naxçıvan Muxtar Respublikası Hava və Ekstremal İdman Növləri Federasiyasında keçirilən yığıncağı giriş sözü ilə federasiyanın sədri Mais Əliyev açıb.*



Bildirilib ki, verilən tapşırıqların icrası, səmərəli fəaliyyətin təmin olunması məqsədilə federasiyanın əhatə etdiyi müxtəlif idman növləri üzrə yarışlar təşkil edilib. Bu yarışlarda, ümumilikdə, 1670 nəfər idmançı, 63 məşqçi və 23 hakim iştirak edib. Yarışlarda müxtəlif yaş qruplarına aid olan idmançılar təmsil olunublar ki, bunlardan da 650 nəfərə yaxını qızlardır. İdmançıların ümumi sayı ötənilkindən 810 nəfər, qız idmançıların sayı isə 400 nəfər çox olub. Şəraitin yaxşılaşdırılması məqsədilə federasiyanın süni divarı əsaslı şəkildə təmir olunub, çatışmazlıqlar aradan qaldırılıb. Yarışların keçirilməsində təcrübənin artırılması, yerli məşqçilərin hazırlanması məqsədilə muxtar respublikamıza Bakı şəhərindən hava və ekstremal idman növləri üzrə müstəqil məşqçi dəvət edilib, idmançı və məşqçilərə təlimlər keçirilib.

Diqqətə çatdırılıb ki, federasiyanın rayonlarda bölmələri də fəaliyyət göstərir. Bölmələr tərəfindən bu idman növlərinin inkişaf etdirilməsi məqsədilə şəhər və rayon birincilikləri də təşkil olunub. Federasiya öz fəaliyyətində beynəlxalq əlaqələrinin genişləndirilməsini də diqqətdə saxlamağa çalışıb. Bu məqsədlə 24 fevralda Xocalı soyqırımı qurbanlarının xatirəsini anmaq üçün Türkiyənin müxtəlif peşə sahiblərindən və nüfuzlu kütləvi informasiya vasitələrinin əməkdaşlarından ibarət 30 nəfərlik alpinist qrupunun, mart ayında isə "Novruz bayramı – Dostluq" devizi altında Türkiyənin müxtəlif bölgələrindən və federasiya idmançılarından ibarət 20 dağçının Haçadağa yürüşü olub.

Sonra Hava və Ekstremal İdman Növləri Federasiyasının sədr müavini Azər Məmmədovun ötən il keçirilən tədbirlər barədə məruzəsi dinlənilib.

Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman naziri Azad Cabbarov çıxışında vurğulayıb ki, "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisində 10 dekabr 2018-ci il tarixdə keçirilən müşavirədə idman federasiyalarına bir sıra tapşırıqlar verilib. Federasiyalar 2019-cu ildə öz işlərini verilmiş tapşırıqlara əsasən qurub. Hava və Ekstremal İdman Növləri Federasiyası da ötən il ərzində fəaliyyətini daha da təkmilləşdirib, süni divara dırmanma mərkəzi yaradılaraq burada gənclər arasında birinciliklər keçirib. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş "Heydər Əliyev kuboku" uğrunda Türkiyə və Naxçıvan alpinistlərinin, həmçinin Naxçıvan Dövlət Universitetində təhsil alan əcnəbi tələbələrin iştirakı ilə Haçadağa yürüş təşkil edilib.

Gənclər və İdman naziri çıxışının sonunda yaradılan hərtərəfli şəraitə, göstərilən qayğıya görə idmançılar adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

## Yoldaşlıq görüşü



Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq!" devizi altında voleybol üzrə yoldaşlıq görüşü keçirilib.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin Voleybol Federasiyası ilə birgə təşkil etdiyi görüşdə "Şahbuz" və "Culfa" komandaları üz-üzə gəlib. Daha baxımlı oyun sərgiləyən Culfa voleybolçuları 5 set davam edən görüşdə meydanı 3:2 hesablı qələbə ilə tərk ediblər.

Sonda hər iki komandanın voleybolçuları mükafatlandırılıblar.

**✍ Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin *Orta İxtisas Polis Məktəbinə 2020-2021-ci tədris ili üçün kursant qəbuluna dair elan*

Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi Orta İxtisas Polis Məktəbinə əyani təhsil üzrə kursant qəbulu üçün müsabiqə elan edir.

Müsabiqədə "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"nin və "Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbinin Nizamnaməsi"nin tələblərinə uyğun olaraq Azərbaycan dilini sərbəst bilən, tam orta təhsilli, boyu azı 170 sm, yaşı 30-dan çox, 20-dən az olmayan və müddətli həqiqi hərbi xidmət keçmiş Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, eləcə də "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamə ilə müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən şəxslər müsabiqəyə buraxılmırlar.

Sənədlərin qəbulu 2020-ci il yanvar ayının 25-dən fevral ayının 25-dək hər gün (bazar və bayram günləri istisna olmaqla) saat $10^{00}$-dan $17^{00}$-dək Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Kadrlar şöbəsində həyata keçiriləcəkdir. Namizədlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

*- şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və notarial qaydada təsdiq olunmuş surəti);*

*- attestat (əsli və notarial qaydada təsdiq olunmuş surəti);*

*- yaşayış yeri üzrə tibb müəssisəsindən Daxili İşlər Nazirliyinə təqdim olunması üçün sağlamlıq haqqında arayış;*

*- hərbi bilet (əsli və notarial qaydada təsdiq olunmuş surəti);*

*- əmək kitabçası (olanlar üçün);*

*- arayış (ailə tərkibi və yaşayış yeri haqqında, işləyənlər üçün isə əlavə olaraq iş yerlərindən);*

*- xasiyyətnamə (yaşayış və ya iş yerindən);*

*- nikah haqqında şəhadətnamə (əsli və notarial qaydada təsdiq olunmuş surəti);*

*- 9x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil.*

İlkin sənədləri Orta İxtisas Polis Məktəbinə təhsilə uyğun gələn namizədlərə müvafiq formada ərizə-öhdəlik yazmaq təklif olunur və onlar abituriyent hesab olunurlar.

Namizədlər Daxili İşlər Nazirliyinin xüsusi həkim komissiyasında müayinədən, habelə fiziki hazırlıq və seçmə komissiyalarında müəyyən edilmiş normativlər üzrə sınaqdan keçməlidirlər (fiziki hazırlıq üzrə minimal normativlər: turnikdə dartınma – çəkisi 80 kiloqramadək olanlar 8 dəfə, çəkisi 80 kiloqramdan yuxarı olanlar 6 dəfə; qaçış 100 metr məsafəyə 15 saniyə və 1000 metr məsafəyə 4 dəqiqə; qolların üzərindən bədənin döşəmədən qaldırılıb-endirilməsi 20 dəfə; gövdənin döşəmədən qaldırılıb-endirilməsi 20 dəfə).

Fiziki hazırlıq normativlərindən birini ödəyə bilməyən, nazirliyin seçmə və ya tibb komissiyalarından keçə bilməyən namizədlər müsabiqədən kənarlaşdırılır. Komissiyaların işi ilə bağlı şikayətlərə nəticələr elan olunduğu vaxt namizədin komissiya sədrinə müraciəti olduqda baxılır.

Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən namizədlərin siyahısı ixtisas seçimində iştirak etmək üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə göndərilir. İmtahanlar Azərbaycan dilində keçirilir.

Qəbul imtahanlarının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşmə, imtahanların vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən edilir və namizədlər bu məqsədlə həmin mərkəzin internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləyə bilərlər.

Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbində tədris Azərbaycan dilində aparılır, təhsil müddəti 2 ildir.

Təhsil müddəti ərzində kursantlar dövlət hesabına yataqxana, xüsusi geyim forması, təqaüd və yeməklə təmin olunur.

Məzunlara Hüquq-mühafizə fəaliyyəti ixtisası və polis kiçik leytenantı xüsusi rütbəsi verilir.

Seçmə komissiyalarının vaxtı və qəbulla bağlı digər məsələlər barədə məlumatlarla Daxili İşlər Nazirliyinin *www.din.nmr.az* internet saytında tanış olmaq mümkündür.

***Sənəd qəbulu ilə bağlı əlavə məlumat almaq üçün əlaqə telefonları: 036-545-08-10 (155, 156, 160).***

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:*** *Piyadalar tərəfindən yol hərəkəti qaydalarının pozulması hansı məsuliyyətə səbəb olur?*

**Cavab:** Piyadaların yollardan istifadəsinin, xüsusən də yol hərəkətində nəqliyyat vasitələri ilə qarşılıqlı münasibətlərinin xüsusi qaydaları nəzərdə tutulub. Piyadaların yol hərəkəti qaydalarına biganə münasibəti onların vurulması ilə bağlı yol-nəqliyyat hadisələrinin baş verməsinə səbəb olur. Hər bir şəxs bilməlidir ki, piyadanın da yol hərəkətində iştirakla bağlı konkret vəzifələri vardır və həmin vəzifələrə ciddi əməl edilməlidir.

Piyadalar tərəfindən yol hərəkəti qaydalarının pozulması inzibati məsuliyyətə səbəb olur. Belə ki, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 338-ci maddəsinə əsasən piyadalar tərəfindən yol hərəkəti qaydalarının pozulmasına, yəni piyada svetoforunun və ya nizamlayıcının işarələrinə riayət edilməməsinə, yolda yaxınlaşmaqda olan nəqliyyat vasitələrinin qarşısına qəflətən çıxılmasına, qırmızı və ya göy sayrışan işıq və xüsusi səs siqnalı qoşulmuş nəqliyyat vasitəsi yaxınlaşan zaman hərəkət hissəsinin tərk edilməməsinə görə iyirmi manat məbləğində cərimə edilir.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi***

## *İtmişdir*

"Nəsimi-M" kiçik müəssisəsinin 0200135621 nömrəli VÖEN şəhadətnaməsi itdiyindən etibarsız sayılır.

***

"Cahan Red-2" Məhdud Məsuliyyətli Cəmiyyətinə (VÖEN:0200701941) məxsus hüquqi sənədlər itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Yunis Cabbarov küçəsi, döngə 3, ev 8-də yaşamış Behbudov Xudaverdi Əzim oğlunun adına olan evin 1136 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Gülcamal Tahirova

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1500. Sifariş № 73